**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**ÜLKƏR TAHİR QIZI HACILI**

# AZƏRBAYCAN – NORVEÇ MUSİQİ ƏLAQƏLƏRİ

6213.01 – Musiqi sənəti

sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Gülnaz Abutalıb qızı Abdullazadə**
Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor

**Rəsmi opponentlər:** **Cəmilə İsmayıl qızı Həsənova**
sənətşünaslıq üzrə elmlər doktoru, dosent

**Ülkər Kamal qızı Talıbzadə**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrası.**

Müdafiə ___aprel 2016-cı ildə saat 14:00-da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ___ mart 2016-cı ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru,
dosent **H.V.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ XASİYYƏTNAMƏSİ

**Tədqiqatın aktuallığı.** Azərbaycan musiqi mədəniyyətinin digər ölkələrlə qarşılıqlı əlaqələrinin öyrənilməsi musiqişünaslığın ən aktual problemlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan və Norveç xalqları arasında mədəni əlaqələrin tarixi kökləri və inkişaf xüsusiyyətlərinin öyrənilməsi aktual məsələlərdən biri kimi irəli sürülür. İki dövlət arasında tarixi, siyasi, iqtisadi və mədəni əlaqələrin mövcudluğu və müasir dövrdə genişləndirilməsi, beynəlxalq mədəni layihələrin həyata keçirilməsi diqqətəlayiqdir.

Müasir dövrdə Azərbaycan – Norveç əlaqələrini xarakterizə edərkən bir neçə istiqaməti qeyd etməliyik: tarix, siyasət, iqtisadiyyat, elm, mədəniyyət və incəsənət sahələri üzrə əlaqələrin inkişafı XX əsrdə Azərbaycan cəmiyyətində ictimai formasiyaların dəyişməsi ilə bağlı olmuşdur.

Azərbaycanın və Norveçin dövlət başçılarının rəsmi görüşləri, eləcə də siyasi, iqtisadi, elm və mədəniyyət sahəsində iki ölkə arasında həyata keçirilən uğurlu əməkdaşlıq qarşılıqlı mədəni əlaqələrin inkişaf etdirilməsi baxımından çox vacibdir və bu aspektdə tədqiqatların aparılması məsələsini gündəmə gətirir. Xüsusilə Ulu öndər Heydər Əliyevin Norveçə səfərinin nəticələrinin öyrənilməsi, onların mədəniyyət siyasəti baxımından dəyərləndirilməsi müasir mədəniyyətşünaslığın qarşısında duran aktual məsələlərdəndir.

Əlamətdardır ki, Ümummilli liderin adını daşıyan və onun ənənələrini yaşadan Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr Azərbaycanın digər ölkələrlə mədəni əlaqələrin inkişaf etdirilməsi baxımından çox səmərəli olub, "İpək Yolu" Beynəlxalq Musiqi Festivalı bilavasitə Azərbaycan və Norveç arasındakı mədəni əlaqələrin öyrənilməsində böyük önəm kəsb edir.

Azərbaycan mədəniyyətinin təbliği ilə bağlı olaraq, konsert proqramlarının, sərgilərin təşkili, eyni zamanda, Norveç musiqi mədəniyyətinin Azərbaycanda tanıdılması məqsədilə müxtəlif tədbirlərin keçirilməsi ölkələr arasındakı mədəni əlaqələrin inkişafı baxımından mühüm amildir. Əlbəttə ki, bu istiqamətdə görülən işlərin mədəniyyət təcrübəsində əhəmiyyətli fakt kimi göstərilməsi ilə yanaşı, onların nəticələrinin öyrənilməsi və ümumiləşdirilməsi də zəruri və vacibdir.

Azərbaycan-Norveç mədəni əlaqələri zəminində XX əsrin II yarısında Azərbaycanın görkəmli musiqiçilərinin, rəssamlarının Norveçə yaradıcılıq səfərləri, sərgilərdə, konsertlərdə çıxış etməsi yaddaqalan faktlardır. Kitab

mübadiləsi, musiqi, təsviri sənət sahəsində yaranan qarşılıqlı əlaqələr Azərbaycan-Norveç mədəni əlaqələrinin bariz nümunəsidir. Bu sahələrdə sərgi, konsert və yaradıcılıq ezamiyyətlərinin təşkili mədəni əlaqələrin ənənəvi formaları kimi əhəmiyyət kəsb edirdi.

Göründüyü kimi, müasir dövrdə Azərbaycan və Norveç arasında dərin məna ifadə edən musiqi əlaqələrinin inkişaf etdirilməsində dövlət səviyyəsində birgə əldə olunmuş nailiyyətlər təqdirəlayiqdir və musiqi mədəniyyəti ilə bağlı qarşılıqlı əlaqələrin xüsusi olaraq araşdırılması bizim tədqiqatımızın aktuallığını şərtləndirir.

Müraciət etdiyimiz Azərbaycan və Norveç musiqi mədəniyyətləri bəşər mədəniyyətinin mühüm tərkib hissəsi kimi qarşılıqlı əlaqələrə açıqdır. Bu baxımdan mədəni təcrübənin öyrənilməsi, yaradıcılığın tarixən kök salmış qanunauyğunluqlarının tədqiqi çox aktualdır.

Mədəniyyətlərin qarşılıqlı əlaqələri əsasında musiqinin inkişafı, xüsusən də dünyanın inkişaf etmiş ölkələrinin qabaqcıl təcrübələrinin öyrənilməsi Azərbaycanda müasir musiqi mədəniyyətinin və elmin inkişafı üçün böyük məna kəsb edir. Bu baxımdan, sənətşünaslıqda o cümlədən, musiqişünaslıqda, mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin öyrənilməsi və əlaqələrin nəticəsi olaraq müxtəlif janrlarda yazılan yeni musiqi əsərlərinin yaranması aktuallığı aydın şəkildə üzə çıxır.

**Mövzunun işlənmə dərəcəsi.** Azərbaycan – Norveç mədəni əlaqələrini araşdırmaq üçün biz həm ayrı-ayrılıqda milli mədəniyyətlərin tədqiqi ilə bağlı elmi ədəbiyyata, həm də qarşılıqlı mədəni əlaqələrə həsr olunmuş bir sıra elmi və publisistik mənbələrə, rəsmi sənədlərə və internet mənbələrinə müraciət etmişik.

Norveç tarixinə və musiqi mədəniyyətinə həsr olunmuş bir sıra mənbələri qeyd edə bilərik. Bunlardan: История Норвегии[1], Друскин М.“История зарубежной музыки”[2], “Музыкальная энциклопедия”[3]və s. bu kimi nəşrlərdə Skandinaviya ölkələrinin mədəniyyət tarixi, Norveç musiqisi, Edvard Qriqin yaradıcılığı ətraflı təqdim olunmuşdur. Bundan əlavə, Norveç alimlərinin musiqi mədəniyyəti sahəsindəki bir sıra

[1]История Норвегии. (Отв. ред. А.С. Кан). М.: Наука, 1980.

[2]Друскин М. История зарубежной музыки. Вып. 4. Вторая половина XIX века. Издание шестое. М.: Музыка, 1983.

[3]Музыкальная энциклопедия. в 6-тт. (гл. ред. Ю. В. Келдыш). М.: Советская энциклопедия, 1973-1982.

tədqiqatlarını: Ланге К., Эствед А. “Норвежская музыка”[4]; Гриндэ Н. “История норвежской музыки”[5] və s. mənbələri qeyd edə bilərik.

Dünya xalqlarının mədəniyyət tarixi, o cümlədən Norveç mədəniyyətinə aid oçerklər - “Mədəniyyət tarixi və nəzəriyyəsi”[6] dərsliyində təqdim olunmuşdur. E.İsgəndərovun[7], V.Ömərovun[8] Azərbaycan-Norveç əlaqələrinə həsr olunmuş məqalələri problemin öyrənilməsi baxımından diqqətəlayiqdir.

Müqayisəli təhlil üçün Azərbaycan xalq musiqisi və xalq çalğı alətləri haqqında bir sıra mənbələrə müraciət olunmuş, o cümlədən Ü.Hacıbəylinin[9], M.İsmayılovun[10], S.Abdullayevanın[11] və b. tədqiqatlarına istinad edilmişdir.

Norveç və Azərbaycan arasında mədəni əlaqələrin inkişafında Azərbaycanın elm və mədəniyyət xadimlərinin Norveçə səfərləri də mühüm rol oynamışdır. Bu səfərlərlə bağlı mətbuatda çıxan məqalələrdə Norveç xalqının mental xüsusiyyətləri, ölkə və onun inkişaf istiqamətləri haqqında, keçirilən mədəni tədbirlər – sərgilər, konsertlər və s. barədə maraqlı məlumatlar öz əksini tapmışdır ki, bütün bunlar bizim tədqiqatımız üçün mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, ilk dəfə bu dissertasiyada Azərbaycan və Norveç mədəniyyətlərinin qarşılıqlı əlaqələri öyrənilir. Azərbaycan mədəniyyəti ilə Norveç mədəniyyətinin qarşılıqlı əlaqəsi musiqi incəsənətinin inkişafı kontekstində nəzərdən keçirilir. Dissertasiyada ilk dəfə olaraq:

- Azərbaycan və Norveç arasındakı siyasi, iqtisadi, tarixi əlaqələr fonunda mədəniyyətin, elm və təhsilin qarşılıqlı mübadilə mühiti hərtərəfli araşdırılmışdır.
- Azərbaycan – Norveç əlaqələrinin inkişafında Ümummilli lider Heydər Əliyevin böyük rolu açıqlanmış, iki ölkə arasındakı siyasi, iqtisadi, tarixi və mədəni əlaqələrin inkişafında yeni mərhələ kimi qiymətləndirilmişdir.

---

[4] Ланге К., Эствед А. Норвежская музыка (перевод с английского). М., 1967.
[5] Grinde N. Contemporary Norwegian music, 1920-1980. Oslo, 1981.
[6] Mədəniyyət tarixi və nəzəriyyəsi. (red. M.Manafova, S.Şahhüseynova). Bakı, 2006.
[7] İsgəndərov E. Vikinqlər ölkəsində (və yaxud markalarda öz əksini tapmış sprinqdans). // “Musiqi dünyası” jurnalı, № 1-2 (11), 2002. s.72-77.
[8] Ömərov V. Azərbaycan-Norveç mədəni əlaqələri. “Səs” qəzeti, 2013, 13 sentyabr. s.15.
[9] Hacıbəyov Ü.Ə. Azərbaycan musiqi həyatına bir nəzər. Əsərləri. II cild. Bakı, Elm, 1965. s.215-226.; Hacıbəyli Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. Bakı, 2010.
[10] İsmayılov M.S. Azərbaycan xalq musiqisinin janrları. Bakı, İşıq, 1984.
[11] Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq – orqanoloji tədqiqat). Bakı: Adiloğlu, 2002.

- Norveç səyyahı və alimi Tur Heyerdalın Azərbaycanda apardığı tarixi-arxeoloji tədqiqatların iki ölkə arasındakı mədəni və musiqi əlaqələrinin genişlənməsində əhəmiyyəti dəyərləndirilmişdir. Bilavasitə Tur Heyerdalın Qobustanda, Şəkidə apardığı tədqiqatların əks-sədası beynəlxalq mədəni layihələrdə, bilavasitə musiqi layihələrində öz təcəssümünü tapmışdır.

- Azərbaycan və Norveç musiqi mədəniyyətləri tarixi inkişaf yolu, musiqi alətləri, musiqi folklorunun janr xüsusiyyətləri, bəstəkarlıq məktəbinin inkişaf mərhələləri araşdırılmışdır. İki ölkənin musiqi mədəniyyətləri arasındakı təmas nöqtələri müqayisəli şəkildə üzə çıxarılmışdır.

- Azərbaycan və Norveç musiqi təhsili sisteminin özünəməxsus cəhətləri xarakterizə olunmuşdur.

- Ölkələrarası musiqi əlaqələrinin inkişafında Azərbaycan və Norveç musiqiçilərinin birgə həyata keçirdikləri beynəlxalq musiqi layihələrinin rolu və əhəmiyyəti təhlil olunaraq dəyərləndirilmişdir.

- Azərbaycan – Norveç beynəlxalq musiqi əlaqələrinin inkişafında mühüm rolu olan musiqi xadimlərin fəaliyyət dairəsi öyrənilmişdir. Bu istiqamətdə Siyavuş Kəriminin, Qalib Həsən Məmmədovun, Elşən Mansurovun yaradıcılığı və fəaliyyəti tədqiqata cəlb olunmuşdur.

- S.Kəriminin “SKRUK” Norveç xoru üçün Azərbaycan xalq mahnı işləmələri, Q.H.Məmmədovun Norveçdə bəstələdiyi fortepiano əsərləri “Pərvanə”, “7 uşaq pyesi” məcmuəsi, “Ü.Hacıbəylinin mövzusuna Variasiyalar”, “Alban Oratoriyası” təhlil edilmiş, onların iki ölkə arasındakı musiqi əlaqələrinin inkişafındakı rolu səciyyələndirilmişdir.

- Norveç Krallığının sifarişi ilə yazılmış Qalib H.Məmmədovun “Alban Oratoriyası”nın Bakıda ilk ifası – Azərbaycan və Norveç yaradıcılıq layihəsinin uğurlu nəticəsi kimi. Burada qədim Qafqaz Albaniyasının tarixi, dini baxışları və adət-ənənələri əks etdirilir.

Hazırkı iş Azərbaycan və Norveç musiqi mədəniyyətlərinin qarşılıqlı əlaqələrinin göstərilən regional aspektdə, bədii sistemlər, incəsənətin müxtəlif sahələrində janr paralelləri səviyyələrində kompleks şəkildə xüsusi olaraq araşdırılmasına həsr olunub. Bununla, tədqiqat üçün seçilən mövzunun müstəqil mövqeyi və dissertasiyanın elmi yeniliyi müəyyənləşir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi – Azərbaycan və Norveç mədəni əlaqələrinin və bilavasitə musiqisinin tarixi kontekstdə və müasir baxımdan tədqiqi, iki ölkə mədəniyyətinin inkişafında musiqi incəsənətinin qarşılıqlı əlaqələrinin rolunun öyrənilməsi ilə bağlıdır. Tədqiqatın vəzifələri:

- Azərbaycanın mədəni inkişafında Norveç ilə siyasi, iqtisadi qarşılıqlı əlaqələrin rolunu aşkarlamaqdan;

- Azərbaycan – Norveç tarixi qarşılıqlı əlaqələrini mədəniyyətin bədii sistemi kontekstində araşdırmaqdan;

- Tarixi-mədəni mühit kontekstində Azərbaycan və Norveç incəsənətini səciyyələndirməkdən;

- Musiqi mədəniyyətinin ayrı-ayrı sahələri üzrə – yaradıcılıq, ifaçılıq, təhsil və s. sahələrində Azərbaycan və Norveç qarşılıqlı əlaqələrinin təhlilindən;

- Müasir dövrdə Azərbaycan və Norveç musiqi mədəniyyətində qarşılıqlı əlaqələrin inkişaf yollarının tədqiq edilərək, əsas xüsusiyyətlərinin və gələcək perspektivlərinin üzə çıxarılmasından;

- Azərbaycan və Norveçin həm xalq həm də professional musiqisinin iki ölkə arasında təqdim olunması yolları və təbliğindən ibarətdir.

**Tədqiqatın metodu və metodologiyası.** Mədəniyyətlərin qarşılıqlı əlaqələrinin öyrənilməsi, nəzərdən keçirilən obyektlərin özünəməxsusluğunun tədqiqi tarixi və nəzəri metod parametrinə aiddir. Tədqiqatda sistemli təhlil metodundan istifadə olunur. Azərbaycan və Norveç incəsənətinin bütün səviyyələrdə qarşılıqlı əlaqələri bədii mədəniyyət sistemində özünü aşkarlayır.

Tədqiqatda araşdırılan məsələnin köklərinə tarixi yanaşma prinsipi vacib metodoloji əsaslardan biridir. Dissertasiyada tarixilik prinsipi musiqi incəsənəti və onun qarşılıqlı əlaqələrinin əsas cəhətlərinin öyrənilməsi baxımından, müxtəlif dövrlərdə, zamanın müxtəlif kəsiklərində incəsənətin tarixi inkişafının səviyyəsini üzə çıxarmaq baxımından tətbiq olunmuşdur.

Tədqiqatın metodologiyasını işləyərkən Hacıbəyli Ü., Abdullazadə G., Бретаницкий Л.С., Веймарн Б.В., Grinde N. adlı müəlliflərin milli musiqi mədəniyyətlərinin tarixinə, nəzəriyyəsinə həsr olunmuş əsərlərinə əsaslanmışıq. Dissertasiyadakı təhlillər, eyni zamanda xarici ölkələrin musiqişünas və kulturoloq alimlərinin tədqiqatları əsasında aparılır.

**Tədqiqatın obyekti.** Azərbaycan və Norveç mədəni əlaqələrində mühüm rol oynayan incəsənətin bütün növlərinin qarşılıqlı şəkildə üzə çıxarılması və müqayisə yolu ilə elmi baxımdan dəyərləndirilməsi.

**Tədqiqatın predmeti.** Azərbaycan və Norveç musiqi mədəniyyətinin müqayisəli və qarşılıqlı əlaqələri.

**Tədqiqatın materialı.** Dissertasiyada Azərbaycan və Norveç mədəniyyət tarixi üzrə müxtəlif konfranslar və elmi seminarların materialları,

Norveç mədəniyyətinə həsr olunmuş bir sıra tədqiqatlar, elmi-publisistik nəşrlər, dövri mətbuatda gedən informasiyalar nəzərdən keçirilib. Tədqiqata cəlb olunmuş materiallar sırasında Azərbaycan bəstəkarları Qalib Həsən Məmmədovun və Siyavuş Kəriminin Norveç musiqiçiləri ilə birgə həyata keçirdikləri beynəlxalq musiqi layihələri, həmçinin bəstəkarların bu ölkəyə həsr olunmuş əsərlərini də qeyd etməliyik.

Tədqiqata bir sıra faktiki material cəlb olunmuşdur: Ü.Hacıbəylinin "Xalq musiqisi əsasları" dərsliyindən müəyyən ladlar üzərində yazılmış orijinal melodiyalar, S.Kəriminin Azərbaycan xalq mahnılarının "SKRUK" xoru ilə işləmələri, Q.Məmmədovun fortepiano üçün "Pərvanə", 7 uşaq pyesi" məcmuəsi, "Variasiyalar"ı və "Alban Oratoriyası" bu qəbildəndir.

**İşin praktiki əhəmiyyəti.** Dissertasiyanın materiallarından Azərbaycan mədəniyyəti ilə dünya xalqlarının mədəniyyətlərinin qarşılıqlı əlaqələrinə yönəlmiş işlərdə istifadə etmək olar. Dissertasiyanın əsas müddəaları Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Azərbaycan Milli Konservatoriyasında musiqişünaslıq və mədəniyyətşünaslıqla bağlı fənlərin tədrisində öz tətbiqini tapa bilər.

**İşin aprobasiyası.** Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının musiqi tarixi kafedrasında müzakirədən keçirilmişdir. İşin əsas müddəaları müəllifin elmi nəşrlərdə çap olunmuş məqalələrində, konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**İşin strukturu**. Dissertasiya işi giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

**Dissertasiyanın I fəsli "Azərbaycan – Norveç arasında tarixi və mədəni əlaqələri"nin araşdırılmasına həsr olunmuşdur.** Bu fəsil üç yarımfəsildən ibarətdir. **1.1. "Azərbaycan-Norveç dövlətlərarası əlaqələrin səciyyəsi" adlanır.** Azərbaycan və Norveç arasındakı münasibətlər bir neçə istiqamətdə: siyasi, iqtisadi, tarixi, elmi, mədəniyyət, ədəbiyyat, rəssamlıq, musiqi və incəsənətin digər sahələri üzrə xarakterizə oluna bilər.

Norveç krallığı mədəni ənənələrə bağlı bir ölkədir. Norveç mədəniyyətinin qədim nümunələri, ənənəvi xalq rəqsləri, mahnıları və nağılları olduqca məşhurdur. Ölkə sənət sahəsində əhəmiyyətli insanlar yetişdirmişdir. Bunlardan rəssam Edvard Munç, bəstəkar Edvard Qriq, heykəltaraş Qustav Vigeland və dramaturq Henrik İbseni göstərmək olar.

Müraciət etdiyimiz mövzu baxımından, qeyd etmək lazımdır ki, Azərbaycan – Norveç əlaqələrində siyasi münasibətlər mədəni əlaqələrin intensivləşməsinə böyük təsir göstərdiyinə görə, beynəlxalq qarşılıqlı əlaqələrin inkişafını əks etdirən sənədlər əsasında bu məsələni işıqlandırmışıq.

Böyük siyasətçi, ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının Norveç Krallığı ilə əlaqələrinin siyasi, iqtisadi və mədəniyyət sahələri üzrə inkişafında böyük rolu olmuşdur. Heydər Əliyev Norveç Krallığının Baş naziri Quru Harlem Brundtlandın dəvətilə 24-27 aprel 1996-cı ildə Norveç Krallığında ilk rəsmi səfərdə olub. Bu danışıqlardan sonra "Azərbaycan və Norveç arasında dostluq və əməkdaşlıq haqqında saziş" imzalanıb. Bu sənədin imzalanması ilə iki neft ölkəsi arasında münasibətlərin rəsmi hüquqi-diplomatik əsası qoyulub. Azərbaycanın dövlət başçısının Norveç Krallığına səfərindən sonra isə bu əlaqələr sürətlə inkişaf etməyə başlayıb.

Elmi istiqamətdə qarşılıqlı əlaqələrin göstəricisi olaraq, Azərbaycan və Norveç alimlərinin görüşlərini qeyd etmək lazımdır. Azərbaycanda elmi axtarışların strateji orqanı və siyasi araşdırmaları üzrə hökumət məsləhətçisi funksiyasını yerinə yetirən Norveç Elmi-Tədqiqat Şurasının nümayəndələrinin Azərbaycan EA Rəyasət Heyətinin üzvləri ilə görüşü və ətraflı fikir mübadiləsindən sonra elm sahəsində qarşılıqlı anlaşma və əməkdaşlığa dair memorandum imzalamışlar. Bundan əlavə, növbə ilə Bakıda və Osloda beynəlxalq elmi simpoziumlar keçirmək, aspirantlar və perspektivli elmlər namizədlərinin mübadiləsi barədə razılıq əldə olunmuşdur.

Norveçdə fəaliyyət göstərən fəal Azərbaycan diaspor təşkilatlarından - Norveç Azərbaycanlıları Gənclər Təşkilatı (NAYO), Norveç Azərbaycan Mədəniyyət Mərkəzi, Azərbaycan-Norveç Assosiasiyası ("ANA"), Azərbaycan-Norveç Mədəniyyət Cəmiyyəti 2002-ci ildən fəaliyyət göstərir. Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatının (AGAT) da bu sahədə fəaliyyəti qeyd olunmalıdır.

Beləliklə, Azərbaycan ilə Norveç arasında mövcud iqtisadi, siyasi, mədəni əlaqələrin davamlı olmasında dövlət siyasəti, iqtisadiyyatın inkişafı mühüm rol oynamaqla yanaşı, qeyri-hökumət təşkilatlarının məqsədyönlü fəa-

liyyətinin də bu işdə böyük əhəmiyyətə malik olduğu göz qabağındadır. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan-Norveç əlaqələri təkcə iqtisadi sahəni deyil, mədəni, tarixi köklərə əsaslanan münasibətləri də əhatə edir.

**I fəslin ikinci yarımfəsli 1.2. – "Azərbaycan-Norveç tarixi-mədəni əlaqələrinin rolu və əhəmiyyəti" adlanır.** Azərbaycan və Norveç arasındakı tarixi və mədəniyyət sahəsindəki qarşılıqlı əlaqələrinin bariz nümunəsi olaraq, dünyada tanınmış norveçli səyyah, etnoqraf və alim-antropoloq Tur Heyerdalın tədqiqatları qeyd olunmalıdır. Tur Heyerdalın 1981-ci ildə Azərbaycana gəlməsi, tədqiqatlar aparması elmi və mədəni əlaqələrin möhkəmləndirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edirdi.

Alimin həyat və fəaliyyətinin bir qismi Azərbaycanla bağlı idi. Belə ki, bu alim çox maraqlı nəzəri mülahizələr – Norveç xalqının bir qisminin Azərbaycanda kökləri olması ilə bağlı müddəalar irəli sürüb. Onun fikrincə, Skandinav və Azərbaycan xalqları arasında hətta qədim qohumluq, ortaqlıq belə mövcud olmuşdur. Alimin bu müddəaları elmi dairələrdə bir qədər mübahisə doğursa da, Norveç və Azərbaycan münasibətlərinə müsbət təsir göstərmişdir.

Tur Heyerdalın Azərbaycandakı tədqiqatları üç ərazi ilə bağlı olmuşdur: Qobustandakı qayaüstü rəsmlərin araşdırılması, Şəkinin Kiş kəndində qədim Alban kilsəsi ilə bağlı tədqiqatlar və Qəbələnin Nic kəndində yaşayan udin xalqının mənşəyinin öyrənilməsi. Bu məqsədlə o, dəfələrlə Azərbaycana səfər etmiş, beynəlxalq miqyaslı ekspedisiyalar təşkil edərək, bütün bunları bir məqsədə - Azərbaycan və Norveç xalqları arasındakı etnik əlaqələrin aydınlaşdırılmasına yönəltmiş və nəticədə bir sıra əsərlərini çap etdirmişdir.

Tur Heyerdalın mülahizələrinin əsasını təşkil edən əsas cəhət - çağdaş norveçlilərin ulu babaları Skandinaviya yarımadasına Azərbaycan torpağından gəlməsi – Avropada xristianlığın və Qafqazda islamın yayılmasından çox-çox öncə baş vermişdir. İrlandiyada qorunub saxlanan salnamələrə əsaslanaraq, alim göstərir ki, norveçlilər hazırkı torpaqlarına Azər ölkəsindən gəlmələrdir. Onun müddəalarına görə, salnaməçi Snorenin Saqasında (dastanında) norveçlilərin Qafqaz qaynağı haqqında yazılıb ki, rumluların, - daha doğrusu, Makedoniyalı İskəndərin yürüşündən sonra Azların başçısı Od(in) öz xalqını Quzeyə doğru aparmaq qərarına gəlir. Əksləri Qobustan qayalıqlarında bu günlərədək yaşayan və Tur Heyerdal tərəfindən üzə çıxarılan gəmilərdə azlar İtil çayı (Volqa) ilə üzüyuxarı üzərək Baltik dənizinə keçib Saks ölkəsinə çatmış və Danimarkanın Fin adasında yurd salmışlar.

Bakıda Tur Heyerdal haqqında kitabların təqdimat mərasimlərinin, sərgilərin və konfransların keçirilməsi iki ölkə arasındakı dostluq əlaqə-

lərinin möhkəmləndirilməsi baxımından əlamətdar hadisələrdən biri olmuşdur. "Tədqiqatçı Tur Heyerdal" kitabı məşhur səyyahın 80 illiyi münasibətilə Norveçdə, ölkənin "Statoil" Dövlət Neft Şirkətinin sponsorluğu ilə buraxılmışdır.

Azərbaycan Dillər Universiteti və Oslo Universiteti tərəfindən 2011-ci ildə (Bakı, 26-29 oktyabr) keçirilən "Tur Heyerdal və Azərbaycan" mövzusunda elmi konfrans olmuşdur.

Göründüyü kimi, Tur Heyerdalın Azərbaycandakı tədqiqatları elm və mədəniyyət xadimlərinin bu məsələyə diqqətini yönəltməklə, bir sıra beynəlxalq layihələrin meydana gəlməsinə təkan vermişdir. İncəsənətin digər sahələri ilə yanaşı, musiqi sahəsində də Azərbaycan – Norveç əlaqələrinin genişlənməsinə səbəb olmuşdur.

**I fəslin üçüncü yarımfəsli 1.3. "Azərbaycan Respublikası və Norveç Krallığında musiqi təhsili sisteminə bir baxış" adlanır.**

Müasir dövrdə Azərbaycanın təhsil sistemində xarici ölkələrlə qarşılıqlı mübadilə proqramlarının həyata keçirilməsi böyük əhəmiyyətə malikdir. Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədi ilə "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 oktyabr tarixli 1746 nömrəli Sərəncamı imzalanmışdır. Həmin sərəncama uyğun olaraq hazırlanmış "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nda istedadlı Azərbaycan gənclərinin xaricdə təhsilinin təşkili istiqamətində vahid sistemin yaradılması nəzərdə tutulur. Azərbaycan gəncləri, həmçinin, respublikada fəaliyyət göstərən müxtəlif təhsil mübadilə proqramları çərçivəsində ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Norveç, İsveç və başqa ölkələrdə də təhsil alırlar.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) ilə Norveçin Bergen Universitetinin Edvard Qriq Akademiyasının birgə "Avrasiya Kamera Orkestri" layihəsi çərçivəsində hər iki akademiyanın gənc ifaçılarından ibarət kamera orkestri yaradılıb.

Bakı Musiqi Akademiyasının "Simli alətlər" ixtisası üzrə 18 tələbəsi Bergen şəhərinə səfər edib. Səfər çərçivəsində Qriq Akademiyasının "Nəfəs alətləri" ixtisası üzrə 11 tələbəsi ilə birgə İ.Stravinski, Qara Qarayev, BMA-nın bəstəkarlıq ixtisası üzrə tələbəsi Vüsal Namazlı ("Fəryad"), Ha-

rald Saverud və Qriq Akademiyasının bəstəkarlıq ixtisası üzrə tələbəsi Kari Telsdat Sundetin ("Learning to Waltz") əsərlərindən ibarət konsert veriblər.

Həmin nümayəndə heyəti Bakıda səfərdə olduğu zaman Bakı Musiqi Akademiyasının böyük zalında birgə konsert baş tutmuş və həmin proqramla çıxış etmişlər. Ümumiyyətlə, Bakı Musiqi Akademiyası və Bergen Universiteti arasında həyata keçirilən bu növbəti uğurlu layihə, iki konservatoriya arasında uzun müddətli aparılan işgüzar əməkdaşlığın nəticəsidir.

Hal-hazırda Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və Bergen şəhəri Qriq Musiqi Akademiyası, bununla yanaşı Azərbaycan Milli Konservatoriyası və Voss şəhəri Ole Bull Musiqi Akademiyası arasında təhsil-mübadilə sistemi üzrə müqavilə mövcuddur ki, bu da ölkələrin musiqi ənənələrinin öyrənilməsi və geniş əlaqələrə imkan yaradır.

Azərbaycan və Norveç arasındakı qarşılıqlı əlaqələrin genişləndirilməsi istiqamətində mühüm əhəmiyyətli layihələr mütəmadi olaraq həyata keçirilir. Bu istiqamətdə səmərəli olan layihə Norveçin Bergen şəhərində baş tutmuşdur. "Azərbaycan-türk mədəniyyət evi"nin və Bergen Universitetinin nəzdində fəaliyyət göstərən E.Qriq adına Musiqi Akademiyasının birgə təşkilatçılığı ilə "Skandinaviya ölkələri ilə mədəni və elmi əlaqələr" İctimai Birliyinin, Cənubi Azərbaycan Milli Demokratik Hərəkatı Təşkilatının, Akademik Kvartet Tələbə Cəmiyyətinin və Müqəddəs Yohannes kilsəsinin dəstəyi ilə Azərbaycan Mədəniyyəti Günləri keçirilmişdir. Bu tədbirin əsas cəhəti ondan ibarətdir ki, Burada azərbaycanlı musiqiçilər həm musiqi, həm də elmi məruzələrini təqdim etmişlər.

Ali musiqi təhsili müəssisələri arasında məhsuldar əməkdaşlıq davam edir. Xüsusilə magistr pilləsi üzrə tələbə hazırlığının mühüm əhəmiyyətə malik olduğunu qeyd etməliyik.

**Dissertasiyanın II fəsli "Azərbaycan – Norveç xalq və professional musiqisinin təmas nöqtələri və müqayisəli təhlili" adlanır**. Bu fəsil iki yarımfəsildən ibarətdir. **Fəslin birinci yarımfəsli 2.1. "Norveç musiqi mədəniyyəti çərçivəsində Azərbaycan musiqisi ilə yaradıcılıq əlaqələri: beynəlxalq musiqi layihələrinin əhəmiyyəti" adlanır**.

İlk baxışda, Azərbaycan və Norveç musiqisinin kəsişmə nöqtələrinin olması da sual doğura bilər. Bununla belə, nəzərdən keçirdiyimiz milli musiqi mədəniyyətlərinin müxtəlifliyində müəyyən təmas nöqtələrinin özünü göstərməsini də qeyd etməliyik. Bu kimi təmas nöqtələri, ilk növbədə, xalq musiqi yaradıcılığında özünü göstərir.

Azərbaycan və Norveç xalq musiqi mədəniyyətində xalq çalğı alətləri mühüm yer tutur. Quruluş xüsusiyyətlərinə və ifaçılıq prinsiplərinə görə xalq musiqi alətləri müxtəlif olsa da, onları yaxınlaşdıran mühüm bir cəhət var ki, o da şifahi ənənələr əsasında, xalqın ruhunu, xarakterini, qədimdən bu günə qədər təkmilləşməsini və yayılmasını əks etdirir.

Dahi Norveç bəstəkarı, pianoçusu, dirijoru və musiqi xadimi Edvard Qriq simfonik musiqidə milli üslubun əsasını qoymuşdur. Qriq musiqisi bu günədək Norveç musiqisinin yüksək zirvəsi olaraq onun rəmzinə çevrilmişdir. Qriqdən sonra gələn Norveç bəstəkarlarının yeni nəsilləri üçün E.Qriq milli musiqi tarixinin ən parlaq şəxsiyyəti, sənət meyarı olaraq qalmaqdadır.

Ümumi baxışla nəzərdən keçirsək, Norveç musiqisində gedən proseslər Azərbaycan musiqisindən fərqlənmiş, ilk öncə instrumental və vokal janrlar sahəsində klassik nümunələr meydana gəlmişdir. Digər tərəfdən isə həm Norveç, həm də Azərbaycan musiqisi üçün önəmli olan milli musiqi qaynaqlarıdır ki, bəstəkar yaradıcılığında onlara istinad olunması milli musiqi üslubunun formalaşmasında mühüm rol oynamışdır.

Həm Norveçdə, həm də Azərbaycanda milli bəstəkarlıq məktəblərinin yaranması məhz xalqın milli şüurunun yüksəlişi dönəmində, milli azadlıq hərəkatının genişləndiyi zamanlarda önə çıxmışdır. Musiqi tarixinin ən parlaq səhifələrini təşkil edən hadisələr məhz musiqi sahəsində dahi şəxsiyyətlərin yaradıcılığı ilə bağlı olmuşdur.

Azərbaycan – Norveç musiqi əlaqələrinin inkişafında iki ölkə musiqiçiləri tərəfindən təşkil olunan beynəlxalq musiqi layihələrinin böyük əhəmiyyəti vardır. Azərbaycanlı və Norveç musiqiçilərinin birgə həyata keçirdikləri beynəlxalq musiqi layihələri müxtəlif səpkili olub, öz əhatə dairəsinə və mahiyyətinə görə fərqlənir.

Norveç vokalçısı Liv Runesdatter və Azərbaycan kamança ifaçısı Elşən Mansurovun birgə layihəsi olan "RUNESDATTER / MANSUROV" adlanan layihə 2006-cı ildən etibarən həyata keçirilir. Dəyişkən tərkibi olan bu ansambl Azərbaycan muğamını və Norveç xalq mahnılarının ümumi cəhətlərini diqqətə çatdırmağı qarşısına məqsəd qoymuşdur. Bu iki ölkənin musiqi mədəniyyəti arasında oxşar cəhət onlarda improvizə sənətinin mövcudluğundan irəli gəlir. Azərbaycan muğamı və Norveç xalq mahnıları musiqi quruluşu baxımından müxtəlif olsalar da, ifadə vasitələri və dramaturji keyfiyyət etibarilə yaxındırlar.

Bütün bunların Azərbaycan-Norveç mədəni əlaqələri baxımından böyük əhəmiyyəti vardır. Xüsusilə də Azərbaycan həqiqətlərinin, Azərbaycan

milli mədəni irsinin zənginliyinin, musiqisinin gözəlliyinin dünyaya çatdırılması olduqca vacib məsələlərdir.

**II fəslin ikinci yarımfəsli 2.2. "Azərbaycan – Norveç musiqi əlaqələrinin inkişafında Siyavuş Kəriminin rolu" adlanır**.

Azərbaycan – Norveç beynəlxalq layihələrinin həyata keçirilməsində Azərbaycan Milli Konservatoriyasının rektoru, Azərbaycan Respublikasının xalq artisti, professor Siyavuş Kəriminin mühüm yaradıcı rolu vardır. Belə ki, o, ilk dəfə olaraq, Norveç musiqiçiləri ilə Azərbaycan musiqiçilərinin birgə əməkdaşlığına əsaslanan layihənin təşəbbüskarı və təşkilatçısı olmuşdur. Onun yaradıcılığında Norveç musiqi mədəniyyətinə bağlılıq ölkələr arasındakı musiqi əlaqələrində yeni səhifə açmışdır və indi də davamlı olaraq inkişaf etdirilir. Bu baxımdan S.Kəriminin dəvəti ilə Per Oddvar Hildrenin Bakıya səfərləri, konsertlər və ustad dərsləri verməsi bunun bariz nümunəsidir və ölkələr arasındakı musiqi əlaqələrinin və təcrübə mübadiləsi sahələrinin genişləndirilməsinə xidmət edir.

Azərbaycan – Norveç musiqi əlaqələrinin inkişaf etdirilməsi baxımından həyata keçirilən beynəlxalq musiqi layihələrinin sırasında Norveçin "SKRUK" xoru və azərbaycanlı musiqiçilərin birgə təşkilatçılığı ilə həyata keçirilmiş "The land we come from" ("Bizim gəldiyimiz ölkə") layihəsidir. Bu layihə, bilavasitə səyyah və alim Tur Heyerdalın Azərbaycanla Norveç tarixi əlaqələrinin üzə çıxarılmasına xidmət edən ekspedisiyalarının əkssədası kimi meydana gəlmişdir və layihənin adında da bu ekspedisiyanın məqsədi öz əksini tapıb. Layihənin musiqi tərtibatçısı, layihənin koordinatoru və aranjimançıları Siyavuş Kərimi və Qalib Həsən Məmmədovdur.

"SKRUK" xoru (Sunnmøre Kristelege Ungdømskor Koret - Sünmör Xristian Gənclər Xoru) Norveçin cox məşhur xor ansamblıdır və dünyanın müxtəlif məkanlarının səsyazma studiyalarında qeydə alınıb. "SKRUK" xorunun bədii rəhbəri Per Oddvar Hildredir. Onun fikrinə görə, Azərbaycan xalq musiqisi zəngin və çoxşaxəli olduğundan Azərbaycan musiqiçiləri ilə birgə layihə işləmələri onun yaradıcılığında məxsusi bir yer tutur. "The land we come from" layihəsinin iştirakçıları sırasında ("Kirkelig Kulturveerksted" ("Kilsə mədəniyyət qrupu") adlı Norveç şirkəti və 1994-cü ilin yanvarından Azərbaycanda qaçqınlarla işləyən Norveç Humanitar Müəssisə təşkilatı qeyd olunmalıdır.

Norveçin "SKRUK" xoru və Azərbaycan musiqiçilərinin birgə layihəsi olan "THE LAND WE COME FROM" (LANDET Vİ KOMMER FRA) tərcümədə – "Bizim gəldiyimiz ölkə, torpaq" irihəcmli layihədir.

Azərbaycan və Norveç musiqi əlaqələrini demək olar ki, gücləndirən, iki ölkə arasında ilk musiqi layihəsi olmağı ilə diqqət cəlb edən və nəticədə yüksək reytinq qazanmış layihədir.

Azərbaycanda alban mənşəli kilsələrin Norveç arxeoloqlarının diqqətini çəkməyi, Tur Heyerdalın mülahizələri Norveç "SKRUK" xoru rəhbəri Per Oddvar Hildre, bəstəkar Qalib Həsən Məmmədov və Siyavuş Kərimini bir araya gətirmişdir. "Bu iki dövlətin mədəniyyəti birləşməlidir" fikri ilə Norveç folklorşünası Bjorn Vegge 1995-ci ildə Azərbaycana səfər edib, mədəniyyətimiz, abidələrimiz və musiqimizlə yaxından tanış olmuşdu.

İki illik araşdırmalar və müzakirələrdən sonra 1997-ci ildə ilk dəfə olaraq adlarını sadaladığımız Azərbaycan və Norveç musiqiçiləri hamısı bir araya gəlmişlər və müxtəlif musiqi ənənələrini, mədəniyyətini uyğun şəkildə birləşdiriblər.

"Landet vi kommer fra'' SKRUK, Brilliant, Ilgar Muradov – Musikk fra Azerbajdsjan" – adlı CD alboma aşağıdakı musiqi nümunələri daxildir:

1.En gammel fabel ("Ay bəri bax"). Solist: Brilliant Dadaşova.

2.Villan villan vei ("Bana-bana gəl"). Solist: İlqar Muradov.

3.Nushabaa og Aleksander den Store ("Çal-Oyna"). Solist: B.Dadaşova.

4.Røde Gardiner ("Aman Nənə"). Solist: B.Dadaşova və İ.Muradov.

5.Kvinnen I Kis ("Bayatı-Şiraz təsnifi"). Solist: B.Dadaşova.

6.Fortellerskålen ("Süsən Sünbül").

7.Fly! ("Laçın"). Solist: İ.Muradov.

8.La den brenne (''Sənsiz olan'') müəllif: Q.H.Məmmədov

9.Sjelens portaler ("Ömrümün istəyi") müəllif : S. Kərimi

10.Ved en kirke i grus ("Laylay") müəllif: Qalib H. Məmmədov

11.Landet vi kommer fra ("Sarı gəlin") Solist : B. Dadaşova

CD-dəki musiqi nümunələrinin musiqi tərtibatında Azərbaycan milli alətlərdən istifadə olunmuşdur. Ud və tarda Siyavuş Kərimi, saz, tütək və balabanda Həsənağa Sadıqov, qarmon, nağara və qoşanağarada Elşən Sadıqov, "La den brenne" ("Sənsiz olan") musiqi nömrəsində kamançada Şəfiqə Eyvazova, "Sjelens portaler'' ("Ömrümün istəyi") isə kamançada Ədalət Vəzirovun ifasında səslənmiş və yazılmışdır. Layihənin solo ifaçıları Azərbaycan xalq artistləri Brilliant Dadaşova və İlqar Muradovdur. Solo vokalbass ifaçısı Norveçli Bjorn Holumdur.

Məlumat kitabçasında musiqi nömrələrinin işlənməsi bölməsində "Ay bəri bax", "Laçın", "Bana-bana gəl" və "Ömrümün istəyi" Siyavuş Kərimi

tərəfindən aranjıman olunduğu qeyd olunub. "Sənsiz olan", "Süsən Sünbül", "Bayatı-Şiraz təsnifi", "Çal oyna", "Laylay" və "Aman nənə" kompozisiyaları isə Qalib Həsən Məmmədova məxsusdur.

Haqqında danışdığımız layihədə S.Kərimi xalq mahnısını solist və xor üçün işləmişdir. Onun əsas məqsədi Azərbaycan dilində mahnının melodiyasını ifa edən solistlə Norveç dilində oxuyan xorun ifasını uzlaşdırmaqdan ibarət idi. Mahnının melodiyası, demək olar ki, ilkin mənbədə olduğu kimi saxlanılmış və işləmənin not yazısına daxil edilməmişdir. Qeyd etməliyik ki, CD-nin məlumat bukletində hər bir işlənilən xalq mahnısının yaranma tarixindən məlumat verilmişdir.

S.Kərimi xor üçün işləməni yaradarkən Azərbaycan xalq mahnıları üçün səciyyəvi olan müşayiət xüsusiyyətlərini nəzərə almışdır. Bu baxımdan *burdon* səsin *ostinat* şəkildə saxlanılmasını qeyd etməliyik. Xor üçün işləmədə hər bir partiyanın özünəməxsus melodik və ritmik xəttə malik olduğunu qeyd etməliyik. Bu xətlər kiçik variantlı dəyişilmələrlə verilərək bir-birilə qarşılıqlı əlaqəli surətdə inkişaf etdirilir. Mahnının reçitativ xarakterli sadə melodiyası çoxtəbəqəli faktura üzərinə qoyulur. Bütövlükdə ənənəvi xalq mahnıları ifaçılığına xas olan bir müşayiət üsulu əmələ gəlir.

Xalq mahnılarının işləmələrinin əsas cəhətlərindən biri – solist və xorun müxtəlif dillərdə oxumasıdır. Burada ifaçıların sənətkarlığı önə çıxır. Xalq mahnı işləmələrinin musiqi üslubunda müşahidə etdiyimiz əsas cəhətlərdən biri də milli və qeyri-milli musiqi ənənələrindən gələn xüsusiyyətləri özündə əks etdirməsidir. S.Kərimi burada mahnının milli intonasiya dönmələrindən istifadə edərək, onları xor partiyalarına daxil edir. Xorun partiyasında *burdon* səslərdən, imitasiyalı gedişlərdən geniş istifadə edir. Norveç xorunun Azərbaycan dilində Azərbaycan xalq mahnılarına xas olan intonasiya quruluşuna müraciət etməsi maraqlı cəhətlərdən biridir.

**Dissertasiyanın III fəsli "Azərbaycan və Norveç musiqi əlaqələrinin bəstəkar yaradıcılığında təcəssümü" adlanır**. Bu fəsil iki yarımfəsildən ibarətdir. **III fəslin birinci yarımfəsli 3.1. "Bəstəkar Qalib Həsən Məmmədovun Azərbaycan və Norveçdə yaradıcılıq fəaliyyəti" adlanır**. Azərbaycan-Norveç musiqi əlaqələrinin inkişafında Norveçdə yaşayan azərbaycanlı bəstəkar, Beynəlxalq əhəmiyyətli musiqi layihələrinin təşkilatçısı və iştirakçısı kimi tanınmış Qalib Həsən Məmmədovun yaradıcılığı mühüm əhəmiyyətə malikdir. Onun əsərlərinin əsas cəhətlərindən biri bilavasitə Norveçin qədim tarixi və ədəbiyyatı ilə bağlı olmasıdır. Qədim Alban tarixinə müraciət edən "Alban oratoriyası", "Allegro Albana"

kimi əsərlər bu baxımdan maraqlıdır. Bu əsərlər Azərbaycan – Norveç tarixi-mədəni əlaqələrində əhəmiyyətli ortaq nöqtə olan Qafqaz Albaniyasına həsr olunmuşdur. Bunlar, bir növ, Tur Heyerdalın ekspedisiyalarının əks sədası olub, onların musiqi təcəssümü kimi diqqətəlayiqdir.

Norveç dövründə bəstəkarın yaradıcılığında özünü qabarıq göstərən mövzulardan biri də Üzeyir Hacıbəyli və Vətən mövzusudur. Bunun da ən bariz nümunəsi "Üzeyir Hacıbəylinin mövzusuna Variasiyalar", "Pərvanə" və "7 uşaq pyesi" fortepiano məcmuələridir. Mövzusuna görə Azərbaycanla bağlı olan bu əsərləri bəstəkar Norveçdə yaşayaraq yaratmışdır və onlarda həm Azərbaycan haqqında bəstəkarın düşüncələri, həm də Norveçlə bağlı təəssüratları öz əksini tapmışdır.

Qalib Məmmədovun "Pərvanə" adlı fortepiano pyesləri məcmuəsi 7 pyesdən ibarətdir: 1."Butterfly", ikinci ad kimi bu adın tərcüməsi verilmişdir: "Pərvanə" (Kəpənək), məhz bu ad məcmuənin başlığına çıxarılmışdır - Allegro; 2."Preludium" ("Prelüd") - Andante sostenuto; 3."Spring" (tərcüməsi: "Bahar"), ikinci adı "Nardaran bağı" - Allegro; 4."Waiting" (tərcüməsi: "Gözləyirəm") – Calmo; 5."Vals" – ikinci adı "Jelazova Volada bir gün" (Marit və Olava ithaf olunur); 5."Nostalgi" - Sostenuto possibile commodo, Andante; 7."Rafoss" (Unni və Tora ithaf olunur) – Presto;

"7 uşaq pyesi" fortepiano məcmuəsinə daxil olan pyeslər bunlardır: "Lullaby" ("Laylay"), "Favorite saz" ("Sevimli saz"), "Morning" ("Səhər"), "March" ("Marş"), "Evening-Glow" ("Axşam şəfəqi"), "Cockscomb" ("Xoruz pipiyi"), "Spring has come" ("Yaz gəlir").

Q.H.Məmmədovun pyeslər məcmuəsi özünəməxsus cəhətlərilə yadda qalır və bu onun üslubu ilə bağlıdır. Q.Məmmədovun "Variasiyalar" əsəri dahi Üzeyir Hacıbəylinin mövzusuna bəstələnmişdir. "Azərbaycan xalq musiqisinin əsasları" kitabından Ü.Hacıbəylinin "Şur" ladında bəstələdiyi orijinal melodiyasından bir neçə cümləni seçərək, onları işləmişdir. Variasiyanın mövzusunda "Səmayi-şəms", "Hicaz" və "Mayə-şur" bölmələrinə aid melodik cümlələrdən və kadensiya quruluşundan istifadə olunmuşdur.

Beləliklə, Üzeyir Hacıbəylinin mövzusu əsasında yaratdığı variasiyalarda bəstəkarın milli musiqi ənənələrinə sadiqliyi, həmçinin, müasir bəstəkarlıq yazı üslubuna əsaslanması özünü göstərir. Başqa sözlə desək, Üzeyir Hacıbəylinin adı, onun musiqisi müəllif üçün Vətən obrazının təcəssümünə çevrilmişdir. Q.H.Məmmədov Vətəndən uzaqda yaşayaraq, Azərbaycan haqqında informasiya daşıyıcısı olan əsərlərini xarici ölkənin dinləyicilərinə çatdırır.

**III fəslin ikinci yarımfəsli 3.2. "Qalib H.Məmmədovun "Alban Oratoriyası"nın Bakıda ilk ifası Azərbaycan və Norveç yaradıcılıq layihəsinin təqdimatında" adlanır**. Qafqaz Albaniyası dövründən bu günümüzə qədər qorunub saxlanılan dünya əhəmiyyətli kilsələrdən biri – Şəki şəhərinin I-II əsrlərə aid olan qədim Alban həvari kilsəsi Qafqaz Albaniyasının, hətta bütün Cənubi Qafqazın ilk xristian kilsəsidir. Norveç alimlərinin iddiasına görə Norveçlilərin əcdadı əvvəllər bu ərazidə yaşamış albanlar olmuşdur. Ardıcıl olaraq bir neçə dəfə Norveç arxeoloq və alimləri (Bernar Sturfiel, Byörn Vegge) məhz bu Kiş məbədində arxeoloji tədqiqatlar aparmışlar. Nəticədə kilsə Norveç hökumətinin himayəsinə alınmış və təmir etdirilmişdir. Həmin dönəmdə milli dəyərlərimizə hörmət və dostluq münasibətlərinin nümunəsi olaraq Norveç Krallığının sifarişi ilə Qalib Həsən Məmmədov "Alban oratoriyası"nı işləməyə başlayır.

Bəstəkar Q.Məmmədovun "Alban oratoriyası" Oslo və Bakı şəhərində 1998/99-cu illərdə Norveç şairi Eyvind Skeienin tərtib etdiyi mətn əsasında yazılmışdır. Bakıda əsərin ilk ifası 2003-cü ildə Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru Rauf Abdullayev və Filarmoniya Xorunun dirijoru Gülbacı İmanovanın rəhbərliyi ilə Kamera və Orqan zalında (Kirxa) təşkil olunmuşdur.

Bəstəkar bu oratoriyanı böyük simfonik orkestrin ikili tərkibi üçün nəzərdə tutmuşdur. Oratoriya 23 Psalm əsasında 5 hissədən ibarətdir. Bu Psalmlar müqəddəs İncil kitabındandır:

1- İn manibus ignem (Od, alov içində)
2-Dolor Deus (İztirablar)
3-Domine Deus Abraham (Müqəddəs İbrahim Peyğəmbər)
4-Deus pro Nobis (Tanrı Bizimlə)
5-Mystery of Jesus Christe. Surrexit (Müqəddəs İsanın möcüzəsi. Təzahür )

*Bölmələr:*

1. Allegro – Albanum ( Allegro- Alban)
2. Flammeum gladium ( Odlu qılınc)
3. Poem (Şeir)
4. İn manibus ignem (Od, alov içində)
5. Dolor meus (İztirabım)
6. Poem (Şeir)
7. Poem (Şeir)
8. Poem (Şeir)

9. De medio rubi “Moses venit ad montem Dei Horeb” (Musa Hələb dağında)

10. Poem(Şeir)

11. Vox Domini (Sahibin səsi)

12. Helias Prophetam ( İlyas ( Helias) Peyğəmbər)

13. Exaudi me (Eşit səsimi)

14. Poem(Şeir)

15. Vox clamantis ( Ağlayan niskilli insanın səsi)

16. İgnem veni mittere ( Mən yandırmağa gəlmişəm)

17. Jesus transfiguratus est (İsa dəyişir)

18. Deus pro nobis (Allah bizim tərəfimizdədir)

19. Heliam vocat iste (Heliamin çağırılması)

20. Surrexit sicut dixit (Təzahür günü)

21. Accesistis ad Sion montem ( Sion dağına keçid )

22. Dignus est agnus( Layiqli qurban)

23. İn camino ardenti ( Odda yanmaq )

Oratoriyanın quruluşunda əsasən kupletlərin variasiya şəkilli üslubuna geniş yer verilmişdir. Bəstəkarın 23 bölmə (Psalm) əsasında işlədiyi oratoriyada istər-istəməz kupletlərin variasiya şəkilli üslubuna müraciət etməsi məntiqə uyğun sayıla bilər. Bu isə kuplet rondo formasının meydana gəlməsinə zəmin yaratmışdır. Yəni burada ümumilikdə Psalmlar kuplet formaya əsaslanır. Daha dəqiq qeyd etsək, İlahiyə xitab, Peyğəmbərlərə bir müqəddəs varlıq kimi müraciət etmək, əlbəttə ki, bu psalmların əsas qayəsini təşkil edir. Bəstəkar da məhz bu prinsipi əsas tutaraq Tanrıya edilən duaları kuplet-variasiya şəklində verməyə nail olmuşdur. Mətnin istifadəsi zamanı bəstəkar səlis, axıcı, dalğavari, qalxan və enən melodik istiqamətlər üzrə əsərin əsas məğzini, onun ideya məzmununu çox aydın şəkildə göstərməyə çalışıb.

Oratoriyada leyt-mövzu, leyt-intonasiya bəstəkarın seçiminə uyğun olaraq hər bir hissəyə özünəməxsus şəkildə verilib. Bu cəhətlər məhz əsərdə ən çox istifadə edilən kuplet-variasiyalılıq tərzini əks etdirmək üçün bəstəkara imkan yaratmışdır.

Ümumiyyətlə, oratoriya dinləyicidə Qafqaz Albaniyası, o dövrün tarixi şəraiti və dini baxışları haqqında müəyyən təəssürat yaradır. Burada insanların bu dünyada yaşadıqları hər bir anın qiyməti və dəyəri, yüksək təfəkkürlə Tanrıya qovuşmanın təzahürü meydana çıxır.

**Nəticə** bölməsində aparılan tədqiqata yekun vurulur. Azərbaycan - Norveç əlaqələri bir neçə istiqamətdə inkişaf etdirilir. Azərbaycan-Norveç mədəni əlaqələrinin inkişafı baxımından, dövlət dəstəyi ilə elm və mədəniyyət xadimlərinin bir sıra müştərək layihələrinin mühüm rolu olmuşdur. Bu baxımdan, dünyanın məşhur səyyahlarından biri olan Tur Heyerdalın Azərbaycana gəlişi həm də mədəni əlaqələrin möhkəmləndirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir.

Müasir dövrdə musiqi təhsili sahəsindəki qarşılıqlı əlaqələrin genişlənməsi diqqəti cəlb edir. Hal-hazırda Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və Bergen şəhəri Qriq Musiqi Akademiyası, həmçinin Azərbaycan Milli Konservatoriyası və Voss şəhəri Ole Bull Musiqi Akademiyası arasında təhsil-mübadilə sistemi üzrə müqavilə mövcuddur ki, bu da ölkələrin musiqi ənənələrinin öyrənilməsi və əlaqələrin genişlənməsinə imkan yaradır.

Azərbaycan – Norveç musiqi əlaqələri mədəniyyətin digər sahələrinə nisbətən daha genişdir. Bu istiqamətdə aparılan araşdırmalar həm musiqi folkloru sahəsində ortaq janrların mövcudluğunu üzə çıxarır, həm də musiqi xadimlərinin həyata keçirdikləri birgə layihələrdə iki ölkənin musiqisi arasındakı ahəngdarlığı nümayiş etdirir. Siyavuş Kəriminin, Qalib Həsən Məmmədovun, Elşən Mansurovun təşəbbüsü və iştirakı ilə hazırlanmış beynəlxalq musiqi layihələri bunu sübut edir. Norveçdə yaşayan Azərbaycan bəstəkarı Q.Məmmədovun yaradıcılığı mövzu, janr və musiqi xüsusiyyətlərinə görə maraqlı olub, hər iki ölkənin musiqi ənənələrinə əsaslanır və mədəniyyətlərin yaxınlaşmasına xidmət edir.

Azərbaycan və Norveç musiqi əlaqələri XX əsrin sonlarından daha intensiv xarakter kəsb etmişdir. Bu istiqamətdə həyata keçirilən beynəlxalq musiqi layihələri, mədəniyyət günləri, festivallar və s. tədbirlər xüsusi əhəmiyyətə malikdir. Azərbaycan və Norveç musiqiçilərinin fəallıqla iştirak etdiyi bu tədbirlər iki xalq arasındakı musiqi əlaqələrini genişləndirməklə yanaşı, onlar arasındakı tarixi əlaqələrin üzə çıxarılmasına imkan verir. Müasir dövrdə Azərbaycan – Norveç musiqi əlaqələrinin ən bariz ifadəsini xalq musiqi alətləri və simfonik orkestr alətlərindən ibarət müştərək ansamblların yaradılmasında, həmçinin Azərbaycan-Norveç musiqi ənənələrindən qidalanan bəstəkar əsərlərinin yaradılmasında görürük.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Norveç krallığı və Azərbaycan Respublikasında musiqi təhsili.// “Konservatoriya” (elmi nəşr) №1,2013. s.75-79
2. Norveç – Azərbaycan musiqi əlaqələri./ Doktorant və gənc tədqiqatçıların XVII Respublika Elmi Konfransının materialları. II cild. Bakı, 2013. s. 267-269
3. Norveç – Azərbaycan musiqi əlaqələri. // “Konservatoriya” (elmi nəşr) №2(20), 2013. s. 91-98
4. Müzik eğitiminde Norveç ve Türk Devletleri arasındakı etkileşim. / “Managing the Art” an international conference on art. 04-07 november 2014, Türkiyə. s. 330 - 334
5. Azərbaycan – Norveç mədəniyyətlərinin dialoqunda musiqinin rolu./ “Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri” XIV Beynəlxalq elmi-praktiki konfransının materialları. Bakı, 2015. s.110 – 112
6. Azərbaycan-Norveç arasında qarşılıqlı əlaqələrin inkişafında beynəlxalq layihələrinin rolu və əhəmiyyəti. http://harmony.musigi-dunya.az, №14, Bakı, 2015
7. Development of cultural ties between Azerbaijan Republic and Norway Kingdom.// European Political and Law Discourse 2016, Çexiya. Volume 3, Issue 2.
8. Azərbaycan və Norveç mədəni əlaqələrinin inkişafı tarixindən.// Rast Uluslararası Müzikoloji Dergisi. Türkiyə, 2016.
9. Azərbaycan bəstəkarı Qalib Həsən Məmmədovun Norveçdə fəaliyyəti.//”Musiqi dünyası” jurnalı № 1-2, Bakı, 2016.
10. Norveç musiqi mədəniyyəti çərçivəsində Azərbaycan musiqisi ilə yaradıcılıq əlaqələri. // harmony.musigi-dunya.az, Bakı 2016.

**Улькер Тахир гызы Гаджили**

## «Музыкальные связи Азербайджана и Норвегии»

## РЕЗЮМЕ

Диссертация посвящена изучению музыкальных связей между Азербайджаном и Норвегией. Во время визита в Азербайджан внимание Тура Хейердала привлекли древние связи между Кавказом и Скандинавией. Его встреча с президентом Азербайджана Г.А.Алиевым явилась толчком в работе над культурными проектами между двух стран. В рамках этих связей в диссертации изучена история формирования Азербайджано-Норвежских музыкальных связей, роль и значение международных музыкальных проектов. Подчеркивается значение совместного проекта Норвежского хора “SKRUK”, в рамках которого осуществлялось исполнение и запись азербайджанских народных и профессиональных песен в сопровождении норвежского хора в оранжировке народного артиста Азербайджана Сиявуша Керими и композитора Галиба Гасан Мамедова. В диссертации дается характеристика творчества Г.Г.Мамедова, соединивший в своей многосторонней композиторской деятельности традиции национальной и мировой музыки.

Диссертация состоит из введения, 3-х глав, 7 разделов, заключения и библиографии.

**I глава** диссертации – **«Исторические и культурные связи между Азербайджаном и Норвегией»** - состоит из трех разделов: **1.1. – «Характеристика межгосударственных связей Азербайджана и Норвегии»; 1.2. – «Роль и значение историко-культурные связи Азербайджана и Норвегии»; 1.3. – «Система музыкального образования в Азербайджанской Республике и в Норвежском Королевстве».**

**II глава** диссертации – **«Связи и сравнительные параметры музыкальных культур Азербайджана и Норвегии» -** состоит из двух разделов: **2.1. – «Общие сведения о норвежской музыкальной культуре и точки соприкосновения с азербайджанской музыкой: значение международных музыкальных проектов»; 2.2. – «Роль**

**Сиявуша Керими в развитии музыкальных связей между Азербайджаном и Норвегией».**

**III глава** диссертации – **«Отражение музыкальных связей между Азербайджаном и Норвегией в композиторском творчестве»** - состоит из двух разделов: **3.1. – «Творческая деятельность композитора Галиб Гасан Мамедова в Азербайджане и Норвегии»; 3.2. – «Премьера «Албанской Оратории» Галиба Г.Мамедова в Баку – в контексте творческого проекта Азербайджана и Норвегии».**

В **заключении** даются выводы и обобщения проведенного исторического и музыкально-теоретического анализа.

**Ulkar Tahir Hajili**

## "Musical relations between Azerbaijan and Norway"

## SUMMARY

The dissertation is devoted to the study of musical relations between Azerbaijan and Norway. Thor Heyerdahl's visit to Azerbaijan, meeting with Heydar Aliyev and the work on the project has drawn attention to the ancient connection between the Caucasus and Scandinavia. This research provides information about the Azerbaijani-Norwegian musical relations' history, the role of international music projects in the development of relations between Azerbaijan and Norway. İncluding the importance of the Norwegian choir joint project "SKRUK" and Azerbaijani musicians, under the direction of Siyavush Karimi. There is a special role of Azerbaijani composer Galib Gasan Mammadov's activity in Norway in the development of music by the relations. The dissertation describes the creation of the composer Mammadov, which is joined in his multilateral creative activity of national traditions and world music.

The dissertation consists of the introduction, 3 chapters, 7 sections, the conclusion and the bibliography.

**I chapter** of the dissertation – **"Historical and cultural relations between Azerbaijan and Norway"** - consists of three sections: **1.1. – "Characterization of interstate relations between Azerbaijan and Norway"; 1.2. – "The role of historical and cultural relations between Azerbaijan and Norway"; 1.3. – "Music education system in the Azerbaijan Republic and the Norwegian Kingdom".**

**II chapter** of the dissertation – **"Communication and comparative parameters of musical culture of Azerbaijan and Norway"** - consists of 2 sections: **2.1. – "Overview of the Norwegian music culture and points of contact with the Azerbaijani music: the value of international music projects"; 2.2. – "The role of Siyavush Karimi in the development of musical relations between Azerbaijan and Norway".**

**III chapter** of the dissertation – **"The reflection of the musical relations between Azerbaijan and Norway in the work of a composer"** - consists of 2 sections: **3.1. – "The creative activity of composer Galib**

**Gasan Mammadov in Azerbaijan and Norway”; 3.2.– The presentation of Galib G.Mammadov’s “Albanian Oratorio” in Baku – as the result of international project between Azerbaijan and Norway”.**

There is given inference and generalisations of historical musical analysis **in the conclusion**.

Çapa imzalanıb: 16.03.2016.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**УЛЬКЕР ТАХИР гызы ГАДЖИЛИ**

# МУЗЫКАЛЬНЫЕ СВЯЗИ АЗЕРБАЙДЖАНА И НОРВЕГИИ

6213.01 – Музыкальное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**Баку – 2016**